# Dünyanı gözəlləşdirməyə çağırış




Zəncan şəhərindən bizə qonaq gəlmiş tərcüməçi-yazar Səhra Vəli qızı Rzayi ilə Ağsu rayonunun Şahbəyli kəndinə şair Mirəli Abbası yoluxmağa getmişdik. Yataqda xəstə yatsa da, bizim görüşümüzə sevinən Seyid Mirəli ayağa qalxdı, bizim ayağımıza heyvan kəsdirdi, oğlu Pənah, qızı və həyat yoldaşı da bizə qonaqpərvərlik göstərdilər. Süfrə arxasında bir-iki saat söhbətləşdik. Mirəli kişi orta məktəbdə oxuduğu dövrü xatırlatdı, o vaxtlardan qələmlə ülfət bağladığını bildirdi. Onu da dedi ki, orta məktəb müəllimi o vaxtlar ona tövsiyə edib ki, yaxşı yazmaq üçün Qurani-Kərimi oxumalısan, hərbin sirlərindən və astronomik elmlərdən hali olmalısan. Çünki Nizami Gəncəvi kimi dahi şairimizin əsərlərində də nücum elminə dair bilgilər vardır və s. Sağollaşanda şair Mirəli Abbas bizə - Səhra xanıma, mənə və bir də bizi maşını ilə Bakıdan buna gətirən bacım Rənanın həyat yoldaşı Abbas Əhmədova özünün 2024-cü ildə çapdan çıxmış "Mən sizinlə görüşə gəlmişəm" adlı şeirlərindən və nəsihətamiz sözlərindən ibarət olan kitabını hədiyyə etdi. Kitabın arxa tərəfdəki üz qabığında Mirəli Abbasın 2 iyul 1950-ci ildə Ağsunun Şahbəyli kəndində anadan olması, tam orta ixtisas təhsilli olması, habelə uzun müddət Neft daşlarında, sonra DİN orqanlarında, daha sonra isə Ağsu rayon Su-meliorasiya idarəsində işlədiyi, 6 kitab müəllifi olduğu, hazırda təqaüddə olması və s. haqda qısa məlumatları gözdən keçirdim. Kitabın içərisində də onun müxtəlif tipli şeir nümunələri, qəzəlləri və atalar sözləri tipində nəsihətamiz yazılarına diqqət yetirdim. Ancaq hər şeydən öncə, Mirəli kişinin ağsaqqallığına, dünyagörmüş həyat təcrübəsinə rəğmən kitabda "Atalar sözləri" bölməsində verilmiş hikmətamiz kəlamlarına diqqətimi yönəldirəm. Bu məqamda istər-istəməz yadıma bizim Cəbrayıl rayonunun Araz Maşanlı kəndindən olan və ömrünün son çağlarında nəşr etdirdiyi Atalar sözləri və məsəllərlə bağlı kitabı düşür. Bayram müəllim ixtisasca ingilis dili müəllimi idi və o, özündən böyüklərdən eşitdiklərini, bir də özünün həyat təcrübəsindən çıxış edərək kəlam halında ifadə elədikləri fikirləri cəmləşdirib bir kitab halına salmışdı və mənim redaktorluğum, ön sözümlə nəşr etdirmişdi. Allahdan Bayram müəllimə rəhmət, seyid Mirəli kişiyə isə can sağlığı diləyirəm.

İndi isə Mirəli Abbasın fikirlərindən bəzi nümunələrə diqqət yetirək:

"Allahı zikr edən bütün varlığını zikr edər" kəlməsi ilə başlayır bu bölməni. Əlbəttə, yaşın ixtiyar vədəsində və üstəgəl seyidlər təbəqəsindən olan bir insan kimi onun Allahı anması və oxucularına da Allah sevgisi təlqin etməsi təbii haldır. "Zəhmətkeş dünyanı gözəlləşdirir". Bu kəlam şairin əməyə, zəhmətə olan böyük ehtiramının ifadəsidir. Yəni tənbəl, harın insanlar dünyamızı kifirləşdirdiyi, eybəcərləşdirdiyi kimi, əksinə, zəhmətsevər insanların sayəsində də dünyamız gözəlləşər, saflaşar. Əlbəttə ki, insan qurmaq, yaratmaqla, zəhmətkeşlik göstərməklə dünyaya öz gözəl töhfəsini verib dünyanı mənalandırar - gözəl edər.

"Gözəlliyi verən Allahdır, ləkə salan insan" cümləsində isə təbiətən-xilqətən hər şeyin Allah təala tərəfindən gözəl (mükəmməl) yaradıldığı, amma sonradan insanların yanlış rəftarı ucbatından gözəlliyə xələllik (ləkə) gəldiyi fikri ifadə olunmaqla insanlara çağırış edilir. Bax beləcə şair Mirəli Abbas öz tərbiyəvi-nəsihətamiz fikirlərilə oxucularını da dünyamızı gözəlləşdirməyə çağırır.

Bu məqamda mən bir el alqışı - deyimi ilə "Allah imanını versin," kişi, - deyib xəstə yatağından şəfa tapıb ayağa qalxmasını arzulayıram!

***Şakir ƏLİFOĞLU,***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***